# Uşaqlar kəskin respirator virus infeksiyası diaqnozu ilə müalicə edilirlər

**Son günlər COVID – 19 pandemiyasının yayılmasının səngiməsini, xəstə sayının azalmasını müşahidə edirik. Buna səbəb kimi, həm əhalinin qoyulan tələblərə ciddi riayət etməsini, həm də ötən ilin dekabr ayının 14-dən sərt karantin rejiminə keçməyimizi göstərə bilərik. Operativ qərargahdan verilən məlumata görə, indiyədək ölkəmizdə 230 mindən çox insanın koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 225 min nəfərə yaxını müalicə olunaraq sağalıb, 3 mindən artıq insan isə vəfat edib. Bu vaxta qədər 2 milyon 400 mindən artıq test aparılıb.**

Yanvarın 18 –dən başlayaraq, ölkədə aparılan peyvəndləmə də məhz insanlarda virusa qarşı immunitetin yaranmasına, yoluxma sayının azalmasına və koronavirusun yayılmasının qarşısının alınmasına hesablanıb. Mütəxəssislər əksər hallarda peyvənd vurulmasına qarşı heç bir əks-göstərişin olmadığını, bəzən isə uşaqlar və hamilə qadınlara peyvəndin əks təsirindən bəhs edirlər. Bəs mümkün yoluxma halında hansı xəstəlikləri olan uşaqlar xüsusi risk qrupuna aid edilirlər?

Binəqədi rayonundakı 21 saylı uşaq poliklinikasının sahə həkimi, pediatr Gültəkin Qurbanova sualımıza cavab olaraq bildirib ki, araşdırmalar və səhiyyə qurumlarının apardığı müşahidələr uşaqlar arasında koronavirus infeksiyasına az rast gəlindiyini, xəstəliyin atipik, simptomsuz, daha yüngül gedişli olduğunu göstərir. Həkim deyib: “Uşaqlarda əsasən yüngül tənəffüs sistemi, qusma, ishal, baş ağrısı, halsızlıq şikayətləri ön plana çıxır, bədən temperaturunun təhlükəli həddə qədər yüksəlməsi, demək olar ki, müşahidə edilmir. Xəstəlik simptomsuz, qısamüddətli və yüngül gedişə malik olur. Lakin yeni doğulmuş körpələr, müəyyən qrup xəstəliklərdən əziyyət çəkən uşaqlar koronavirus infeksiyasının daha ağır təzahür etməsinə görə risk qrupuna aiddir”.

Pediatrın bildirdiyinə görə, yeni doğulmuş uşaqlarda yoluxma cift vasitəsilə, doğuş prosesi zamanı və doğuşdan sonrakı ilkin təmaslar nəticəsində baş verir: “Bu zaman yüngül və ya orta ağırlıqlı sətəlcəm başlaya bilər. Bu körpələr immun sistemləri tam təkmilləşmədiyi üçün infeksiyanı daha ağır keçirə bilərlər. Əsasən nəfəs darlığı, burun kanallarının tutulması, öskürək, mədə - bağırsaq sistemi ilə əlaqədar simptomlar ön plana çıxır”.

Həkim bildirib ki, yalnız anadangəlmə ürək qüsurları, bunlarla bağlı aparılan cərrahi əməliyyatlar COVID – 19 infeksiyasının körpələrdə ağır gedişinə səbəb ola bilər. Bu qüsurlar zamanı qanın oksigenlə təchizatı azalır. Bununla paralel ağciyərlərin koronavirus infeksiyasına məruz qalması mövcud xəstəliyin ağırlaşması ilə müşayiət olunur. Qan sisteminin bədxassəli xəstəlikləri – leykoz, limfoma, mieloma və s. patologiyalara məruz qalmış uşaqlar da yoluxma riski və xəstəliyin ağır gedişi baxımından diqqət mərkəzində olmalıdırlar. Bu xəstəliklərdən hazırda aktiv müalicə alan və müalicəni yeni tamamlamış uşaqlar koronavirus infeksiyasını nəzərəçarpacaq dərəcədə ağır keçirə bilər. Bu, onların əsas xəstəliyinin müalicəsi ilə bağlı immun sistemi zəiflədən dərmanların qəbulu ilə əlaqədardır. Ancaq müalicəni bir neçə il əvvəl tamamlamış, sümük iliyi nəql olunmuş uşaqlarda immun sistem normal sayılacaq dərəcədə fəaliyyət göstərdiyi üçün koronavirus infeksiyası yüngül gedişli olur.

Pediatr kistoz fibroz xəstəliyi olan uşaqların valideynlərinin xüsusilə diqqətli olmalarının vacibliyini vurğulayıb: “Kistoz fibroz irsi xəstəlikdir. Təəssüf ki, ölkəmizdə də bu ağır xəstəlikdən əziyyət çəkən uşaqlar var. Bu, xüsusi diqqət yetirməli olduğumuz vacib bir patologiyadır. Əsasən tənəffüs, həzm, cinsiyyət sistemi və tər vəzlərinin mayesinin yapışqan, duzlu hal almasına səbəb olur. Bu zaman həm bronx, həm də dəri tənəffüsü pozulur. Çünki həm bronx mayesi, həm də tər qatı və yapışqan olur. Ona görə bu xəstələrdə koronavirus infeksiyası daha ağır gedişli müşahidə edilə bilər”.

O, həmçinin qeyd edib ki, bronxial astma xəstəliyi olan uşaqlar da bu baxımdan diqqət mərkəzində olmalıdır. 1-ci tip şəkərli diabet, piylənmədən əziyyət çəkən və qaradərili uşaqlar da (qara dəridə D vitamininin sintezi azdır, bu vitamin isə immun sistemə stimullaşdırıcı təsir göstərir) risk qrupuna aid edilir. Epilepsiya xəstəliyi yoluxma və xəstəliyin gedişi baxımından bir xüsusiliyə malik olmasa da, koronavirus infeksiyası zamanı epileptik tutmaların sürətlənməsi müşahidə edilə bilər. Ona görə də epilepsiyadan əziyyət çəkən uşaqların valideynləri COVID – 19-a yoluxma halı müşahidə edilərsə, mütləq nevropatoloqlarına məlumat verməli və onun tövsiyələrinə riayət etməlidirlər.

Ümumiyyətlə, valideynlərə tövsiyə olunur ki, uşaqlara şəxsi gigiyena qaydalarını, sosial məsafəyə riayət etməyi öyrətsinlər, tibb müəssisələrinə planlı müraciətdən qaçmasınlar, ehtiyac yarandığı halda həkimləri ilə məsafədən əlaqə saxlasınlar. Bu addımla həm uşaqlarını, həm də özlərini infeksiyadan qorumuş olarlar.

Məsələ burasındadır ki, mütəxəssislərin ehtimallarına görə, üçüncü dalğa ilə gələcək mutant virus daha çox uşaqları yoluxduracaq. Artıq Böyük Britaniyada bu hallar var, amma uşaqlar arasında ağırlaşma halları qeydə alınmamışdır. Ona görə də, hələ ki, qorxu ilə özümüzü yükləməyə ehtiyac yoxdur.

Ölkəmizdə virusun yeni ştammı bəlkə də var. Onun olmasını bilmək üçün gərək hər xəstə uşaq test edilsin. Amma edilmir, çünki test nəticəsi pozitiv çıxsa da, nə edəcəyimizi bilmirik. Hələ ki, uşaqlar xəstələnsə də sağalırlar. Həmişə olduğu kimi kəskin respirator virus infeksiyası (KRVİ) diaqnozu ilə müalicə edilirlər.

Pediatr deyir ki, Fevralın 1-dən məktəblər açılıb, uşaqlar artıq məktəbə gedəcəklər. Onsuz da vəziyyət ciddiləşsə, onlar yenidən evdə qalmalı olacaqlar. Vəziyyət isə onların məktəbə gedəcəklərinə yox, virusun aqressivliyinə bağlı olacaq.

G.Qurbanova məsləhət görür ki, uşaqları xəstələnmədən muxtəlif vitaminlərlə yükləməyin. Bunun heç bir mənası da yoxdur. Ola bilər ki, uşaqları yoluxduran koronavirus özünu rotavirusdan ( qusma-ishal) artıq formada göstərməsin. Belə olduqda təhlukə də olmayacaq. İkinci bir məsələ, valideynləri də narahat etməli olan bir məqam da uşaqların ümumiyyətlə peyvəndsiz qalmalarıdır. Qızılca, göyöskürək, poliomielit kimi bildiyimiz ağır keçə bilən xəstəliklərin peyvəndini etməyi ləngitmək olmaz. Əsas onların təhlükəsi böyükdür. Dəqiq bildiyimiz budur. Koronavirusun isə yeni, hansı sürprizlə gələcəyini dəqiq bilmirik.

Sonda TƏBİB-in WhatsApp vasitəsilə Azərbaycanda uşaqların kütləvi şəkildə koronavirusa yoluxması ilə bağlı yayılan səs yazısına münasibətini qeyd etmək istərdik. TƏBİB-in məlumatında qeyd olunur ki, Ümumdünya Səhiyyə Təşkilatının rəsmi açıqlamasına görə, koronavirusun mutasiya olunmuş yeni variantının xəstəliyin ağırlıq dərəcəsinə təsir göstərməsinə və bunun uşaqlar arasında daha geniş yayılmasına dair hər hansı fakt yoxdur. Yeni ştammın sadəcə yoluxmanın sürətini yüksəltməsi və bununla əlaqədar xəstə sayının artması istisna edilmir. Ümumiyyətlə, sözügedən ştamm ölkəmizdə hələ ki, qeydə alınmayıb.

Açıqlamada, həmçinin qeyd edilir ki, bu səbəbdən yayılan səs yazısı şayiə xarakterlidir və cəmiyyətdə ajiotaj yaratmaq məqsədi daşıdığına görə araşdırılması üçün aidiyyəti orqanlara təqdim olunub. Məlumat üçün onu da bildirək ki, səs yazısını paylaşan həkim saxlanılıb və o etdiyi səhvi etiraf edib.

Məlumat üçün onu da qeyd etməliyik ki, hazırda əhalinin sağlamlığının etibarlı şəkildə qorunması və koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə xəstəxanalarda müalicə prosesi sabit şəkildə davam edir.

Bu səbəbdən vətəndaşlarımızdan yalnız rəsmi məlumatlara inanmağı xahiş edir, ayrı-ayrı şəxslərə isə cəmiyyətdə çaşqınlıq yaradan açıqlamalar paylaşmaqdan çəkinməyi tövsiyə edirik.

*Zərifə BƏŞİRQIZI,*
*“Xalq qəzeti”*

Xalq qəzeti 2021.- 7 fevral.- S.4.